UOT 902
https://doi.org/10.59849/2710-0820.2026.1.248

**Nəcəf Müseyibli**
*AMEA Arxeologiya və Antropologiya İnstitutunun "Etnoarxeologiya" şöbəsinin müdiri, t.e.d., professor.*
*necef_museibli@mail.ru;*
*https://orcid.org/0000-0002-4228-6364*

# AZƏRBAYCANIN ARXEOLOJİ ABİDƏLƏRİ VƏ QƏDİM İRANLILAR MƏSƏLƏSİ

***Açar sözlər:*** *Son Tunc-İlk Dəmir dövrü, at dəfnləri, miqrasiya istiqamətləri, kurqanlar, qəbir kameraları, at əsləhəsi, arilər, irandilli tayfalar.*

## Giriş

Azərbaycanın Son Tunc-İlk Dəmir dövrü qəbir abidələrinin arxeoloji qazıntıları zamanı heyvan sümüklərinə mütəmadi olaraq rast gəlinir. Dəfnlər zamanı qəbirlərə iri və xırda buynuzlu heyvanların, itlərin, bəzən vəhşi heyvanların bütöv və ya parçalanmış hissələrinin qoyulması həmin tarixi dövrün dəfn mərasimləri ilə bağlı olmuşdur. Xüsusilə də Xocalı-Gədəbəy və Naxçıvan mədəniyyətlərinin inkişaf etmiş mərhələsinə – e.ə. XIII-IX əsrlərə aid olan bir sıra qəbir abidələrində atların bütöv halda insanlarla birgə və ya ayrıca dəfn olunması adətinə rast gəlinir. Dəfn qaydalarının və arxeoloji materialların tam yerli mədəniyyətə məxsus olmasına baxmayaraq iranşünas alimlərin demək olar ki, hamısı bu abidələri qədim irandilli tayfalara aid edib onların köçləri ilə bağlamağa çalışırlar.

Belə ki, qədim İran tarixi ilə məşğul olan tarixçi-arxeoloq-linqvistlər (iranşünaslar) göstərilən dövrdə ağac konstruksiyalı qəbir abidələrində ("kərtmə qəbirlər") at dəfnlərinin icra olunduğu Srub (срубная культура) arxeoloji mədəniyyəti əhalisi olan irandilli tayfaların cənubi Rusiya çöllərindən – Ural-Volqaboyu regionundan miqrasiya edərək Azərbaycandan keçməklə İrana köçdüklərini və bununla da burada ilk irandilli əhalinin, arilərin yayıldığını yazmışlar. Onların fikrincə Azərbaycanda aşkar edilmiş at dəfnli kurqan abidələri də məhz qədim irandilli əhaliyə aiddir.

Atçılığı, qədimdə atla bağlı bütün məlumatları hindavropalılarla bağlayan tədqiqatçıların fikrincə at ilk dəfə Cənubi Rusiya çöllərində hindavropalılar, hindiranlılar tərəfindən əhliləşdirilmiş, sonra atçılıq tədricən Orta Asiyada, Qafqazda, Anadoluda və Yaxın Şərqdə yayılmışdır. Bu tədqiqatçılar öz fikirlərini arxeoloji abidələrlə hind və İran (Riqveda, Avesta) mifologiyası arasında paralellər axtarmaqla, qədim hind-avropalıların dillərində "at" sözünün eyni olması ilə əsaslandırmağa çalışmışlar. Y.Y.Kuzmina belə hesab edir ki, e.ə. III minillikdə -II minilliyin əvvəllərində Avropadan Kiçik Asiyaya hindavropalıların – hettlərin, luviyalıların, palayların ilk axını baş vermişdir və məhz onlar qədim Şərq xalqlarını atla tanış etmişlər (Кузьмина, 1977, с. 32). Lakin unutmaq olmaz ki, Avrasiyanın hindavropalı olmayan xalqlarının da mifologiyasında, folklorunda at mövzusu kifayət qədər geniş təmsil olunmuşdur.

İranşünasların Azərbaycanın Son Tunc-İlk Dəmir dövrü at dəfnli kurqanlarının arilərə məxsus olması barədə iddiaları bu vaxtadək Azərbaycan arxeologiya elmində geniş araşdırılmamışdır. H.Cəfərov Qarabağ abidələri əsasında atçılığın Azərbaycanda qədim köklərə malik olduğunu, at dəfnlərinin, at kultunun, atların dəfn olunduğu kurqanların strukturunun, tipologiyasının yerli köklərə bağlılığını yığcam şərh etmişdir (Джафаров, 2023, с. 128-135).

Bu elmi problem çox genişdir və ayrıca bir tədqiqat işinin mövzusudur. Gələcəkdə bu barədə daha geniş nəşr işi nəzərdə tutulduğundan burada yalnız bəzi məqamlar üzərində qısa dayanmağı vacib hesab edirəm.

**Arilərin İrana köç istiqamətləri barədə**

Diskussiyalara səbəb olan əsas məsələ irandilli tayfaların indiki İran, o cümlədən Cənubi Azərbaycan ərazisinə hansı istiqamətdən axışıb gəlmələridir. Tədqiqatçıların bir qrupu (əksəriyyəti) onların şərq istiqamətindən – Orta Asiyadan, digər qrupu isə Şimali Qafqaz və Şimali Azərbaycandan keçməklə (Qafqaz marşrutu) Urmiyaətrafı ərazilərə gəldiklərini iddia edirlər. Hər iki qrupun tərəfdarları Assuriya yazılı mənbələrindəki çox məhdud məlumatların təhlilinə və arxeoloji qazıntıların nəticələrinə əsaslanırlar. Əksər müəlliflər, xüsusilə tarixçi-linqvist İ.M.Dyakonov, arxeoloqlar V.M.Masson və Y.Y.Kuzmina onomastika, toponomiyaya aid materiallar və başlıca olaraq keramika məmulatından ibarət arxeoloji materiallar, qəbir abidələrində ikihürgüclü dəvə dəfnləri və s. məsələlər əsasında belə hesab edirdilər ki, irandilli tayfalar İran ərazisinə şərq istiqamətindən – Mərkəzi Asiyadan gəliblər. V.M.Masson bu prosesin daha qədimdə – e.ə. II minilliyin birinci yarısında başlandığını qeyd etmişdir (Дьяконов, 1956; Массон, 1964; Кузьмина, 2008).

Digər qrup tədqiqatçılar isə irandillilərin Şimali və Cənubi Qafqazdan (başlıca olaraq Azərbaycan ərazisindən) keçməklə İran yaylasına gəldikləri fikrinə üstünlük verirlər. Bu tədqiqatçıların əsas istinad mənbəyi Azərbaycan ərazisində tədqiq edilmiş e.ə. XIII-IX əsrlərə aid atların dəfn edildiyi qəbir abidələri, ilk növbədə Mingəçevir, Şahtaxtı, Gəncəçay hövzəsindəki kurqanlardır və Urmiya gölünün cənub sahilindəki Həsənli arxeoloji kompleksində aşkar edilmiş, arabaya qoşulma imitasiyası ilə 4 atın dəfn edildiyi qəbirdir. Tədqiqatçılar Həsənli qəbrini e.ə. VIII əsrə aid etmişlər. Bu tədqiqatçıların fikrincə Azərbaycanın həmin qəbir abidələri qeyd edilən dövrdə Volqaboyu-Ural regionundan hərəkət edərək Şimali Qafqazdan keçməklə Azərbaycan ərazisinə köçüb məskunlaşmış irandilli ari tayfalarına məxsusdur (Грантовский, 1970, с. 337-341; Погребова, 1977, с. 114-141; Алиев, 1987; Погребова, 2011, с. 97-100). Bununla yanaşı İqrar Əliyev irandilli arilərin müəyyən qisminin Orta Asiyadan keçməklə, Y.Y.Kuzmina isə onların həm də Qafqazdan keçməklə İrana getmələrini istisna etmirlər (Алиев, 1987, с. 61; Кузьмина, 2008, с. 226).

İ.V.Pyankov bu məsələni bir qədər fərqli izah etmişdir. Onun fikrincə şərq (Orta Asiya) istiqamətindən baş vermiş hərəkətlər köçəri əhalinin kütləvi miqrasiyaları idi və bu axınlar Ön Asiyada etnik mənzərənin dəyişməsi ilə nəticələnmişdir. Qərb (Qafqaz) istiqamətindən olan hərəkətlər isə yalnız hərbi yürüşlər idi və bu yürüşlərdə kişilər iştirak edirdi. Qərb istiqamətindən hərəkət edən insan qrupları regionda etnik vəziyyətə təsir edə bilməmiş və həmişə yerli əhali arasında assimilyasiyaya uğramışdır (Пьянков, 1979, с. 196-198).

At dəfnləri amili ilə əlaqədar olaraq irandillilərin – arilərin şimal istiqamətindən Azərbaycan ərazilərinə axışıb gəlmələrinin iranşünaslar tərəfindən iddia edilən mümkün *marşrutlarına* diqqət yetirmək vacibdir. Birinci marşrut kimi elmi ədəbiyyatda daha çox Xəzərin qərb sahili boyu, Dağıstan ərazisi, Dərbənd keçidi göstərilmişdir. Bu fikri əsaslandırmaq üçün tədqiqatçılar Dağıstanın dağlıq zonasında e.ə. II minilliyin sonu-I minilliyin əvvəlinə aid at dəfnlərinin aşkar edildiyini yazır və bunun üçün arxeoloq V.İ.Markovinin əsərinə istinad edirlər (Погребова, 1977, с. 133; Кузьмина, 1977, с. 35; Алиев, 1987, с. 61). Doğrudur, M.Poqrebova elə buradaca etiraf edir ki, Şimali Qafqazda Cənubi Qafqaz abidələri ilə (Azərbaycan ərazisindəki at dəfnli kurqanları nəzərdə tutur – N.M.) bir sıraya qoyulacaq abidələr məlum deyildir (Погребова, 1977, с. 133). Bununla M.Poqrebova hər iki regiondakı at dəfnli qəbrlərin müxtəlif olduğunu qeyd etmiş olur.

Ən əsası isə odur ki, adları çəkilən iranşünasların istinad etdikləri Şimali Qafqazın at dəfnli qəbirlərini V.İ.Markovin əslində e.ə. VIII əsrdən sonrakı dövrə, yəni skif dövrünə aid etmişdir. Bu qəbirlərdən yalnız birində (Zandak nekropolu) atın tam skeleti aşkar edilib. Digər bir neçə qəbirdə ayrı-ayrı at sümükləri aşkar edilib (Марковин, 1969, с. 85, 93).

Göründüyü kimi, Dağıstanın dağlıq zonasında tədqiq edilmiş at qəbiri Azərbaycandakı at dəfnli kurqanlardan çox sonrakı tarixi mərhələyə aid olduğundan bu kurqanların qurucularının əcdadlarına məxsus ola bilməzdi. Digər tərəfdən, Dağıstandakı həmin qəbirlər Azərbaycandakı ağac konstruksiyalı at dəfnli kurqanlardan struktur baxımından tam fərqlidir.

Burada onu da qeyd etmək vacibdir ki, əgər arilərin hərəkəti doğrudan da Dağıstan istiqamətindən baş versəydi o zaman bu, Dərbənd keçidi vasitəsilə reallaşa bilərdi. Lakin nə Dərbənd ətrafı Cənubi Dağıstanda, o cümlədən Xəzərsahili zolaqda, nə də ona qonşu Azərbaycanın şimali-şərq zonasında, yəni ari tayfalarının keçə biləcəyi ərazilərdə e.ə. II minilliyin ikinci yarısı-I minilliyin əvvəlinə aid at dəfnləri məlum deyildir. Atların dəfn edildiyi, İranşünasların istinad mənbəyi olan qəbir abidələri göstərilən bu ərazilərdən çox kənarda – Azərbaycanın mərkəz-qərb bölgələrində, Kür və Araz çayları arasındakı zonada aşkar edilmişdir.

Qafqaz istiqamətində İkinci marşrut qismində Böyük Qafqazın mərkəzi yüksək dağ keçidləri nəzərdən keçirilir. Bu keçidlərin şimal sonluğu qarşısında – Şimali Qafqazda bəhs edilən dövrdə Koban arxeoloji mədəniyyəti yayılmışdır. Y.Y.Kuzminanın yazdığına görə Koban mədəniyyətində at kultu geniş yayılmışdır və bu mədəniyyətə aid qəbirlərdə at skeletləri və ya at kəllə sümükləri aşkar edilmişdir (Кузьмина, 1977, с. 35). Lakin tədqiqatçı bu qəbirlərin Koban mədəniyyətinin hansı mərhələsinə aid olduğunu dəqiqləşdirməmişdir. Belə ki, məlum olduğu kimi, Koban mədəniyyəti e.ə. XIV-IV əsrləri, yəni min illik bir dövrü əhatə edir. Əslində bu mədəniyyətin e.ə. VII-VI əsrlərə aid mərhələsində bəzi qəbirlərdə at dəfnləri meydana çıxır ki, bunlar da skiflərin həmin regiona hərəkəti ilə, skif dəfn adətləri ilə bağlı olmuşdur. Bunu əvvəlki mərhələyə aid yerli qəbirlərdən seçilən, həmin qəbirlərdə icra olunmuş dəfn adətlərindəki, qəbir avadanlığındakı, antropoloji tiplərdəki fərqlər aşkar şəkildə göstərir (Козенкова, 2018, с. 291). Qeyd edilənlər göstərir ki, Şimali Qafqazda e.ə. II minilliyin sonu-I minilliyin ilk əsrlərinə aid Azərbaycan ərazisindəki at dəfnli kurqanlar tipində qəbir abidələri məlum deyildir.

Mərkəzi Qafqaz keçidlərinin cənub qarşısındakı zonada – indiki Gürcüstan ərazisində də at dəfnləri e.ə. VII-VI əsrlərə, yəni skiflərin yürüşü dövrünə aiddir. Bu zonada e.ə. XI-IX əsrlərə aid at dəfnləri məlum deyildir (Погребова, 1984, с. 29-30). Hər halda həmin bölgələrdə müzakirə edilən at dəfnləri tipində (məs. Mingəçevir kurqanları) abidələr aşkar edilməmişdir.

Göründüyü kimi, Azərbaycan ərazisindəki e.ə. XIII-IX əsrlərə aid at dəfnli kurqanları əsas götürərək irandilli arilərin şimaldan Azərbaycan ərazisinə hərəkətini yazan tədqiqatçıların fikirləri arxeoloji faktlarda öz təsdiqini tapmır. Belə ki, əgər at dəfnli Azərbaycan kurqanları iranşünasların yazdıqları kimi doğrudan da irandillilərə aiddirsə o zaman qeyd edilməlidir ki, Böyük Qafqaz dağ silsiləsinin nə şimal, nə də cənub qarşısında, yəni irandilli tayfaların Ural-Volqaboyundan Cənubi Qafqaza, Azərbaycan ərazilərinə ehtimal edilən miqrasiyalarının marşrutları üzərində bu miqrasiyaları sübut edə biləcək arxeoloji abidələr məlum deyildir.

Artıq qeyd edildiyi kimi, tədqiqatçıların əksəriyyəti arilərin (Andronov və Srub mədəniyyətləri daşıyıcılarının) İran ərazisinə miqrasiyalarının kütləvi şəkildə məhz Orta Asiya vasitəsilə və daha əvvəl baş verdiyini yazırlar. Əgər bu məsələyə at dəfnlərinin yalnız qədim irandillilərə aid olduğunu iddia edən adları çəkilən iranşünas alimlərin məntiqinə uyğun yanaşılsa o zaman Orta Asiya regionunda Azərbaycan ərazisindəki at dəfnli kurqanlar tipində çoxsaylı abidələr olmalı idi. Lakin həmin alimlər bu məsələnin üzərindən sükutla keçirlər. Çünki Orta Asiya regionunda nə Srub mədəniyyəti qəbirləri, nə də Azərbaycan kurqanları tipində at dəfnli abidələr aşkar edilməmişdir. Bu vəziyyət bir daha onu göstərir ki, arilərin hərəkətinin istiqamətini müəyyən edərkən at dəfnlərinin mövcudluğu əsas ola bilməz.

Arilərin İrana miqrasiyasının Orta Asiya istiqaməti barəsində bəhs edilərkən başlıca olaraq arxeoloji materiallara, xüsusilə də spesifik keramika məmulatına və tuncdan at əsləhəsinə, eyni zamanda ikihürgüclü dəvə kultuna istinad edilir. At kultu məsələsi isə Qafqaz istiqamətinə nisbətən bir qədər zəif göstərilmişdir (Кузьмина, 2008, с. 228-233).

Doğrudan da Orta Asiyada bəhs edilən dövrdə Azərbaycandakı kurqanaltı at dəfnləri tipində abidələr məlum deyildir. Ümumiyyətlə, Orta Asiyanın qərb-cənubi-qərb ərazilərində, yəni arilərin İrana hərəkəti zonasında e.ə. II minilliyin ikinci yarısına aid at dəfnlərinə nadir hallarda rast gəlinir. Bununla əlaqədar olaraq Türkmənistan ərazisində Tekkemtəpə və Qonurtəpə yaşayış yerlərini göstərmək olar. Bunların birində quyunun içərisində parçalanmış at,

digərində isə cavan atın yarı hissəsi aşkar edilmişdir (Щетенко, 2008, c. 222-228). Həmin regionda at dəfnləri (əgər bunlara at dəfni demək mümkündürsə) barədə məlumatlar bununla bitir və bu tapıntıları Azərbaycan kurqanları ilə heç bir halda müqayisə etmək mümkün deyil. Eyni zamanda, Türkmənistandakı ari ənənəsinə aid edilən bu qəbirlərin strukturunun Azərbaycanda analoqları yoxdur.

**Qədim Azərbaycanda atçılıq, at kultu, at dəfnləri barədə**

Əslində Azərbaycanda atların əhliləşdirilməsi, onların təsərrüfatda istifadəsi və at kultu daha qədim tarixə malikdir. Belə ki, e.ə. V minilliyin əvvəllərinə aid Əliköməktəpə yaşayış yerində (Cəlilabad rayonu) atların əhliləşdirilməsini sübut edən maddi faktlar aşkar edilmişdir. Buradakı arxeozooloji tapıntıların 7,5 %-i məhz əhliləşdirilmiş atlara məxsusdur (Нариманов, 1987, c. 153). Bundan əlavə, Əliköməktəpədə at kəlləsinin ritual dəfni aşkar edilmişdir ki, bu da qeyd edilən dövrdə bu zonada at kultunun mövcudluğunu göstərir (Müseyibli, 2023, s. 150). Növbəti mərhələlərdə – Son Xalkolit dövrü Leylatəpə mədəniyyəti (e.ə. V minilliyin sonu-IV minilliyin birinci yarısı), İlk Tunc dövrü Kür-Araz mədəniyyəti (e.ə. IV min. ikinci yarısı-III min.) abidələrində daşdan və gildən at başı formasında hazırlanmış fiqurlar, skipetrlər ("əsa başlıqları") aşkar edilmişdir (Müseyibli, 2020, s. 181; Aşurov və b., 2017, s. 109-110). Bu tapıntıların at kultu ilə bağlı olması şübhə doğurmur.

Orta Tunc dövründə qəbirlərdə atların parçalanmış halda dəfn edilməsi adəti meydana çıxır. Şəmkir rayonundakı Qaracəmirli kurqanlarında (Гусейнова, 2011), Ağstafada Həsənsu kurqanında (Müseyibli, Ağalarzadə, 2013) və s. qəbir abidələrində belə dəfnlər aşkar edilmişdir. Tədricən bu adət Son Tunc dövrünə keçir və müəyyən fərqlərlə belə dəfnlərin sayı artır.

Azərbaycan ərazisində Son Tunc-İlk Dəmir dövründə (e.ə. II min. ikinci yarısı-I min. ilk əsrləri) yaylaq maldarlığının geniş yayılması zəminində atdan istifadə daha da intensiv səciyyə almışdır. Bununla əlaqədar olaraq köçmə heyvandarlıq təsərrüfatında nəqliyyat vasitəsi kimi atlar, əmlakın, heyvan sürülərinin qoruyucu kimi isə itlər insanların ən yaxın köməkçiləri idilər. Məhz bu səbəbdən o dövrdə digər heyvanlarla yanaşı bu heyvanların da kultu mövcud idi. Bununla əlaqədar olaraq qəbir abidələrində Orta Tunc dövründə olduğu kimi atların parçalanmış dəfnləri ilə yanaşı onların bütöv halda dəfn edilməsi adəti yaranmışdır. Naxçıvanda (Алекперов, 1960, c. 56; Aşurov, 2004), Mingəçevirdə (Şəkil 1) (Асланов и др. 1959) Gəncəbasarda (Погребова, 1977; Qoşqarlı və b., 2003), Qarabağda (Cəfərov, 2000), Son Tunc-İlk Dəmir dövrünə – e.ə. II minilliyin ikinci yarısı-I minilliyin əvvəlinə aid atların həm parçalanmış, həm də bütöv halda dəfn edildiyi (bəzən ayrıca, bəzən isə insanlarla birgə) qəbir abidələri tədqiq edilmişdir. Heç də təsadüfi deyil ki, at dəfnli qəbirlər heyvandarlıq təsərrüfatının yaylaq-qışlaq sahəsinin intensiv inkişaf etdiyi Kiçik Qafqaz zonasının düzən, dağətəyi, az hallarda dağlıq (Gədəbəy) ərazilərində aşkar edilmişdir. Maraqlıdır ki, itlərin insanlarla birgə dəfn edildiyi qəbir abidələri də məhz həmin (düzənlik) zonada tədqiq edilmişdir (Müseyibli, 2007, s. 10-12). Eyni zamanda, bu dövrün qəbir abidələrində, o cümlədən kurqanlarda at skeletləri ilə birgə iri və xırda buynuzlu təsərrüfat heyvanlarının tam skeleti və ya müxtəlif sümükləri aşkar edilmişdir.

**Arxeoloji abidələri iranlaşdırma cəhdləri barədə**

Tanınmış iranşünas, tarixçi-linqvist E.A.Qrantovskiy 1970-ci ildə nəşr olunmuş məşhur kitabında yazırdı ki, "Zaqafqaziyanın, Talışın və qərbi İranın arxeoloji materiallarının, xüsusilə də silahların, at əsləhələrinin, bəzək əşyalarının tipoloji və forma yaxınlığı iran tayfalarının qərbi İranın mədəniyyətinə təsirinin göstəricisidir". O, bu fikri davam etdirərək yazırdı: "Bununla yanaşı, Şərqi Zaqafqaziyanın (Şimali Azərbaycan ərazisi nəzərdə tutulur – N.M.) Son Tunc-İlk Dəmir dövrü kompleksləri Şimali Qafqaz kompleksləri, həmçinin çöl mədəniyyətləri ilə (Ural-Volqaboyunun katakomba və Srub mədəniyyətlərini nəzərdə tutur – N.M.) *mübahisəsiz olaraq* (kursiv bizimdir – N.M.) bağlı idilər" (Грантовский, 1970, c. 369-370).

E.A.Qrantovskinin əslində kifayət qədər *mübahisəli olan* bu tezisləri sonrakı onilliklər ərzində iranşünas alimlər tərəfindən aksioma

kimi qəbul edilmiş, təhlillər aparılmadan, İqrar Əliyevin təbirincə desək, "nüfuzlu alim" kimi başlıca mənbə olaraq ənənə üzrə dəfələrlə istinad olunaraq təkrar edilmişdir. Belə ki, E.A.Qrantovskiy Azərbaycanın və Volqaboyunun Srub mədəniyyətinin Son Tunc-İlk Dəmir dövrü arxeoloji komplekslərinin, arxeoloji materiallarının uyğunluğu kontekstində (qəbir abidələrinin strukturu, dəfn qaydaları, tapıntıların texniki-tipoloji xüsusiyyətləri və s.) öz fikirlərini konkretləşdirməklə heç bir əyani müqayisə aparmamışdır. O, bəhs edilən kitabını 2007-ci ildə əlavələrlə yenidən nəşr etmiş, lakin burada da (Грантовский, 2007, с. 423-424) eyni fikirləri təkrar etmiş (sanki 37 il ərzində elmdə heç bir inkişaf baş verməmiş kimi) və heç bir müqayisəli təhlillər aparmamışdır.

Arxeoloji abidələrin təhlillərinə belə səthi yanaşma, əlbəttə, yanlış nəticələrə gətirib çıxarmalı idi. Hələlik bəzi müqayisələri qeyd etməklə kifayətlənirəm. Belə ki, 1) Azərbaycan ərazisindəki və Srub mədəniyyətindəki at dəfnli qəbir abidələri struktur baxımından tipoloji olaraq biri-birindən fərqlənir. Məsələn, Mingəçevirdə (Асланов и др., 1959) və Qarabağda (Cəfərov, 2000) tədqiq edilmiş at dəfnli iri ölçülü qəbir kamerası (bəzən 250 $m^2$-dan artıq) və ya xaçvari plana malik qəbir kamerası olan kurqanlara Srub mədəniyyətində rast gəlinmir. 2) İranşünasların Srub mədəniyyətinə aid əsas istinad mənbəyi olan Bıkovski kurqanında (Şəkil 2.1) və bu tip abidələrdə atlar çox zaman qəbir kamerasından kənarda dəfn edilmişlər (Смирнов, 1957). Azərbaycandakı abidələrdə isə atlar həmişə qəbir kamerası sahəsində, onun daxilində dəfn edilmişdir. 3) Srub mədəniyyəti qəbirlərində daha çox ağacdan yonulub düzəldilmiş taxtalardan istifadə edilmişdir. Azərbaycan abidələrində isə sadəcə emal edilməmiş ağac tirlərdən istifadə edilmişdir. 4) Qəbirlərin konstruksiyasında ağaclardan istifadə etmə ənənəsi Azərbaycanda hələ İlk Tunc dövründə, yəni Srub mədəniyyətindən ən azı iki min il əvvəl meydana çıxıb, Orta Tunc dövründə bir qədər zəif davam edib və Son Tunc-İlk Dəmir dövründə isə daha da təkmilləşib, bəzən daha mürəkkəb quruluşlu qəbirlər meydana çıxıb. 5) Naxçıvan mədəniyyəti arealındakı atların dəfn edildiyi qəbirlərdə isə (Şahtaxtı, Maxta) ağac konstruksiyalardan istifadə olunmamış və bunlarda atla birgə insan dəfn edilməmişdir. 6) Azərbaycanda və Srub mədəniyyətində aşkar edilmiş arxeoloji materialların (keramika, metal silahlar) eyniliyindən söhbət gedə bilməz. Və s.

E.A.Qrantovskinin arxeoloji materialların uyğunluğu və bunun irandillilərlə bağlanması barədəki fikirlərinə gəlincə həm də qeyd edilməlidir ki, hələ Neolit dövründən başlayaraq qədim tarixin bütün mərhələlərində, o cümlədən Son Tunc-İlk Dəmir dövründə Cənubi Qafqaz Ön Asiyanın intensiv iqtisadi-mədəni təsiri arealında olmuşdur. Bəhs olunan dövrdə Cənubi Qafqaz-Ön Asiya qarşılıqlı əlaqələri tunc silah nümunələri və digər materiallar əsasında elmi ədəbiyyatda geniş şərh edilmişdir (Махмудов, 2008; Джафаров, 2023 və s.). Həm də bunu daha ətraflı edən alimlərdən biri elə M.Poqrebova özü olmuşdur (Погребова, 1977). Bu araşdırmalarda təhlil edilən silahların bəzi nümunələrinə Şimali Qafqazın Koban mədəniyyətində rast gəlinir ki, bunlar də məhz cənub – Ön Asiya və Cənubi Qafqazın təsirlərinin nəticəsi olmuşdur. Lakin bu əlaqələrin irandilli arilərə heç bir aidiyyatı yoxdur. Onu da qeyd etməliyik ki, Srub mədəniyyəti abidələrində, yəni irandillilərin ilk vətəni hesab edilən regionda həmin silah nümunələri (məs. daha çox nümunə göstərilən Ön Asiya tipli xəncərlər) məlum deyildir.

E.A.Qrantovskiy başda olmaqla iranşünasların tez-tez istinad etdikləri arxeoloji materiallardan biri də at əsləhəsi, at gəmləridir. Onların fikrincə Mingəçevir kurqanlarında aşkar edilmiş gəmlər də cənubi Rusiya çöllərindən gəlmiş irandillilərə aiddir (Грантовский, 1970, с. 369-370; Алев, 1973, с. 178). Arxeoloq A.İ.Terenojkin isə Mingəçevirin II saylı kurqanından aşkar edilmiş at gəmlərini bəzi müqayisələr əsasında çox sonrakı dövrə – e.ə. VII əsrin ikinci yarısı-VI əsrin əvvəlinə aid etmişdir (Тереножкин, 1971, с. 71-83). İ.Əliyev isə onun bu məqaləsini "*parlaq tədqiqat*" adlandıraraq yazırdı ki, "A.İ.Terenojkin Mingəçevirin bəzi kurqanları ilə arxası üstdə düz uzadılmış dəfnlərin olduğu torpaq qəbirlərinin eyni dövrə aid olduğunu göstərmişdir" (Алев, 1979, с. 6). Lakin at əsləhəsi problemini daha geniş araşdıran İ.N.Medvedskaya A.İ.Terenojkinin bu fikirlərinin əsassız olduğunu tutarlı faktlarla sübut etmiş və Mingəçevirin II saylı kurqanının e.ə. VIII əsrdən gec olmayaraq meydana çıxdığını

qeyd etmişdir. Eyni zamanda İ.N.Medvedskaya Mingəçevir tipindəki gəmlərin Cənubi Qafqaz-Yaxın Şərq regionu üçün səciyyəvi və yerli olduğunu yazmışdır. O, xüsusilə qeyd edir ki, qədim İranda və Cənubi Qafqazda at əsləhələri skif dövrünə qədərki mərhələdə Qafqaz dağlarından şimalda, Avrasiya çöllərində və Orta Asiyada gedən proseslərdən asılı olmayaraq müstəqil şəkildə formalaşmışdır (Медведская, 1983, с. 67-68; Медведская, 2013, с. 437-438). F.Quliyev də İ.N.Medvedskayanın bu tarixləndirməsi ilə razılaşmışdır və Mingəçevir kurqanlarından aşkar edilən at gəmlərinin tipologiyası əsasında həmin kurqanları e.ə IX-VIII əsrlərə aid etmişdir (Quliyev, 2008, s. 198-199). "*Parlaq tədqiqat*" müəllifi A.İ.Terenojkindən fərqli olaraq İ.N.Medvedskaya tam bir abidələr toplusunun xronologiyasını müəyyənləşdirmək üçün yalnız bir predmeti əsas götürməmiş, həmin abidələri kompleks şəkildə təhlil edərək elmi həqiqətə daha yaxın olmuşdur. Mingəçevirdə qazılmış cəmi 5 kurqanın hamısı abidənin tədqiqatçıları tərəfindən bütün arxeoloji göstəriciləri əsasında e.ə. XI-IX əsrlərə aid edilmişdir (Асланов и др., 1959, с. 120). Əslində arxeoloji materialların kompleks təhlili ilə belə tarixləndirmə (bəlkə də daha qədim) daha realdır.

İ.Əliyevin A.İ.Terenojkinin Mingəçevirin e.ə. XI-IX əsrlərə aid kurqanlarını cavanlaşdıraraq e.ə. VII-VI əsrlərə aid torpaq qəbirləri ilə eyni dövrə aid etməsi fikrinə üstünlük verməsinin səbəbi onun hər iki tip qəbirlərin cənubi Rusiya çöllərindən gəlmə irandillilərə aid etmə cəhdi idi. Bununla əlaqədar İ.Əliyev arxeoloqları kəskin tənqid etdiyi məqaləsində yazırdı ki, "Mingəçevirin kurqanları və torpaq qəbirləri mahiyyət etibarilə Çöl (cənubi Rusiya çöllərini nəzərdə tutur – N.M.), eyni zamanda Qara dəniz ətrafı qəbirlərini təkrarlayır. Mingəçevir kurqanlarının və torpaq qəbirlərinin Çöl qəbirləri ilə yaxınlaşdıran xüsusiyyəti onlarda atların dəfn edilməsi idi ki, bu da skif (və ümumiyyətlə iran) mənşəli tayfaların dəfn adətlərinin ayrılmaz tərkib hissəsidir" (Алиев, 1979, с. 6-7).

Mən burada İ.Əliyevin bu fikirlərinə zidd olaraq özünün digər əsərlərində (məs: Алиев, 1973; Алиев, Погребова, 1981; Алиев, 1987) Mingəçevir kurqanlarını cənubi Rusiya çöllərinin e.ə. II minilliyin sonu-I minilliyin əvvəlinə, yəni daha qədim dövrə aid irandilli əhalisi ilə bağlama iddialarını təhlil etmək istəmirəm. Yalnız onu qeyd etməklə kifayətlənirəm ki, Mingəçevirin skif dövrü torpaq qəbirlərində İ.Əliyevin yazdığının əksinə olaraq at dəfnləri aşkar edilməmişdir. Burada at sümüklərinin aşkar edildiyi yeganə torpaq qəbir Orta əsrlərə – XIII əsrin sonu-XIV əsrin əvvəlinə aid olub monqol döyüşçüsünə məxsusdur (Асланов и др. 1959, s. 102-103). Onu da qeyd etmək lazımdır ki, Mingəçevirin dəfnlərin yanı üstdə, sıx bükülü vəziyyətdə icra edildiyi torpaq qəbirləri dəfn qaydaları və arxeoloji materiallar əsasında buradakı kurqanlarla eyni dövrə (e.ə. IX-XI əsrlərə) və eyni mədəniyyətə aid edilmişdir. Mingəçevirdə torpaq qəbirlərdən fərqli olaraq kurqanlarındakı atlar və digər heyvanlarla birlikdə zəngin dəfnlər əhalinin sosial və əmlak differensiyası ilə izah edilmişdir (Асланов и др. 1959, s. 116-119). Mingəçevirin nə qeyd edilən torpaq qəbirlərində, nə də ki, kurqanlarında skif dövrü ilə (e.ə. VII-VI əsrlər) tarixləndirmə üçün əsas tapıntı olan skif tipli ox ucluqları aşkar edilməmişdir.

Bütün bu arxeoloji faktlara baxmayaraq İqrar Əliyev və M.Poqrebova e.ə. II minilliyin sonu-I minilliyin əvvəlində kurqanlarda at dəfnləri əsasında Azərbaycanda "iranlaşmaya" dair mülahizələrini davam edərək növbəti mərhələdə (e.ə. VIII-VII əsrlərdə) irandilli əhalinin – sakların/skiflərin sonrakı Antik dövrdə Sakasena və Kambisena adlanan bölgələrə gələrək məskunlaşdıqlarını yazırdılar. Onların fikrincə Gəncə-Göy-göl, Mingəçevir-Şəki zonaları məhz kurqanlarda at dəfnlərinin aşkar edildiyinə görə artıq Rusiya çöllərindən axıb gəlmiş irandillilər tərəfindən iranlaşmışdılar. Bu tədqiqatçılar öz fikirlərini əsaslandırmaq üçün Sakasena etnoniminin də irandilli saklarla/skiflərlə bağlı olduğunu iddia edirdilər (Алиев, Погребова, 1981, с. 129; Алиев, 1987, с. 65).

Bununla əlaqədar ilk növbədə qeyd etmək lazımdır ki, Avrasiyanın Skifiya adlandırılan geniş ərazilərində yaşayan toplumların tərkibi etnodil baxımından yekdil deyildi. İqrar Əliyev özü də vaxtilə bu fikri qeyd etmişdir (Алиев, 1960, с. 101). Bundan əlavə, İ.Əliyev Sakasena barədəki fikirlərinə zidd olaraq sonralar bir məqaləsində yazırdı ki, "etnonimlər, ümumiyyətlə xoronimlər heç də həmişə xalqın etnik mənsu-

biyyətinə, dilinə şahidlik edə bilməz" (Алиев, 1986, с. 129). Bu fikirlə razılaşaraq və dilçi olmadığımdan bu məsələnin linqvistik baxımdan araşdırılmasının mənim qarşımda duran vəzifə olmadığını nəzərə alaraq yenidən arxeoloji faktlar – at dəfnləri mövzusuna qayıdıram.

Bir anlığa təsəvvür edək ki, İ.Əliyev, M.Poqrebova və digər iranşünas tədqiqatçıların yazdığı kimi, Gəncə-Göy-göl-Mingəçevir zonasındakı at dəfnli kurqanların qurucuları cənubi Rusiya çöllərindən gəlmiş irandillilərdir. Amma bu məqamda qeyd etmək vacibdir ki, həmin kurqanların sayı 20-dən artıq deyil. Onu da qeyd etmək vacibdir ki, həmin zonalarda göstərilən dövrə aid, at dəfnlərinin aşkar edilmədiyi yüzlərlə kurqan, torpaq və daş qutu tipli qəbirlər qazılmışdır. Belə olan halda, qəbir abidələrinin ümumi statistikasında az qala görünməyən at dəfnli kurqanların gəlmə (iranşünasların fikrincə) qurucuları olan kiçik qruplar həmin zonaların böyük sayda yerli əhalisini necə assimiliyasiya edib irandillilərə çevirə bilərdilər? Xüsusilə də irandillilərə aidliyi iddia edilən həmin kurqanlarda az sayda döyüşçülərin dəfn edildiyini və bu kurqanlardakı arxeoloji materialların, dəfn adətinin yerli mədəniyyətə aidliyini nəzərə alsaq bu fikirləri əsassız hesab edə bilərik.

Bundan əlavə, Azərbaycanın cənubi-şərqində irandilli əhalinin – talışların minillər boyu kompakt yaşadıqları bölgədə yüzlərlə qəbir abidələrinin qazılmasına baxmayaraq bəhs edilən dövrə aid atların dəfn edildiyi heç bir qəbir aşkar edilməmişdir.

Eyni zamanda, indiki İranın farsların məskunlaşdığı mərkəz və şərq regionlarında da at dəfnli kurqanlar məlum deyil. İranşünas alimlərin tez-tez müraciət etdikləri, cəmi bir neçə qəbirdə at dişlərinin aşkar edildiyi Marlik nekropolu Xəzərin cənubi-qərb sahillərinə yaxın ərazidə yerləşir. Marlik qəbirləri struktur, dəfn adəti, arxeoloji materialları ilə Azərbaycandakı at dəfnli kurqanlardan əsaslı şəkildə seçilirlər. Yalnız Urmiya gölününün cənub sahilində tədqiq edilmiş, arabaya qoşulma imitasiyası ilə atların dəfn edildiyi Həsənli qəbiri (Şəkil 2.2) Şimali Azərbaycandakı atların dəfn edildiyi kurqanlar, xüsusilə də eyni imitasiyalı III Mingəçevir kurqanı (Şəkil 1) ilə uyğundur.

Şübhəsiz, bir məqalənin imkanları daxilində bəhs edilən elmi problemlər barədə geniş təhlillər aparmaq mümkün deyil. Bu müzakirələri tanınmış tarixçi alim İqrar Əliyevin və tarixçi-arxeoloq Mariya Poqrebovanın elə öz fikirləri ilə tamamlamaq yerinə düşər: "Arxeoloji materiallardan etnik proseslərin göstəriciləri kimi istifadə olunması böyük ehtiyatlılıq tələb edir. Həmçinin, arxeoloji göstəricilər əsasında hindavropa, hindiran və iran tayfalarının yayılmasını izləmək ciddi çətinliklərlə qarşılaşır və indi, həm də bundan sonra da uzun müddət böyük fikir ayrılıqlarına gətirib çıxaracaqdır. Lakin tarixçi, arxeoloq və linqvistlərin birgə tədqiqatları etnik interpretasiya edilən maddi mədəniyyətin bəzi elementlərini müəyyən etməyə imkan verir" (Алиев, Погребова, 1981, с. 127-128).

Amma göründüyü kimi belə sanballı fikirlərin müəllifləri olan görkəmli alimlər arxeoloji abidələrin müqayisələrində kifayət qədər ehtiyatlı olmamış və etnik tarixdən bəhs edərkən bu məsələdə çox mühüm olan arxeoloji abidələri səthi təhlil etmiş, çox kiçik bir qrup qəbir abidələri əsasında qlobal miqyaslı qəti iddialar irəli sürmüşlər.

Eyni zamanda, tarixçi İ.Əliyev arxeoloqları tənqid etdiyi həmin məqaləsində yazırdı ki, "elmdə hər hansı "son söz" həmişə son söz ola bilmir" (Алиев, 1979, с. 14). Əlbəttə, yuxarıdakı qısa təhlilləri nəzərə alsaq onun bu fikirləri ilə razılaşmamaq mümkün deyil.

Bu məqamda həm də İ.M.Dyakonovun linqvistik və arxeoloji materialların bağlantısı barədə yazdıqları yerinə düşür: "ayrı-ayrı uyğunluqlar heç nəyi sübut etmir – yalnız sistemi sistemlə, strukturu strukturla müqayisə etmək olar" (И.М.Дьяконов, 1984, с. 12). Məhz bu baxımdan Azərbaycanda aşkar edilmiş at dəfnli qəbirləri kompleks tədqiq etmədən, onların strukturunu, insanların dəfn qaydalarını və əsas arxeoloji materiallarını cənubi Rusiyanın irandillilərə aidliyi hesab edilən abidələri ilə müqayisəli şəkildə araşdırmadan həmin qəbirlərin arilərə məxsus olması barədə fikirləri sübuta yetirilmiş hesab etmək olmaz. Göründüyü kimi bütün bu göstəriciləri ilə haqqında bəhs edilən Azərbaycan kurqanları cənubi Rusiya çöllərinin həmdövr qəbir abidələri ilə heç bir uyğunluğa malik deyildir və bu kurqanlar bütün bu göstəriciləri ilə yerli mədəniyyətə məxsusdurlar.

**Nəticə**

Beləliklə, öz fikirlərini təsdiqləmək üçün arxeoloji abidələrə əsaslanan iranşünas müəlliflərin gəldikləri nəticələr məhz arxeologiya elminin məntiqinə uyğun deyil və bu fikirlər qəbuledilməzdir. Arxeoloji araşdırmalar göstərir ki, Azərbaycanda hələ Xalkolit dövründən başlayaraq atlardan geniş istifadə olunmuş və at kultu meydana çıxmışdır. İlk Tunc dövründə maldarlıq təsərrüfatının inkişafı ilə əlaqədar atlardan istifadə daha da intensiv xarakter almış, Tunc dövrünün orta və son mərhələlərində isə qəbirlərdə insanlarla birgə və ayrılıqda atların həm parçalanmış, həm də bütöv dəfni adəti meydana çıxmışdır. Lakin bu adət geniş yayılmamış, lokal bölgələr üzrə məhdud sayda qeydə alınmışdır. Bu adət qədim əhalinin təsərrüfatı, dini inamları və dəfn edilən insanların sosial statusu ilə bağlı olmuşdur. Buna görə də atların və yaxud digər heyvanların bu və ya digər qaydalarla məhdud sayda dəfnləri Son Tunc-İlk Dəmir dövründə regionda etnodil problemlərinin həlli üçün əsas amil ola bilməz.

Əslində Avrasiyanın müxtəlif regionlarında atın əhliləşdirilməsi, dəfn edilməsi, at kultu insanların həyat tərzi, təsərrüfatı, inamları və cəmiyyətdə sosial iyerarxiya ilə bağlı olaraq müstəqil şəkildə meydana çıxmışdır. İstər Ural-Volqaboyunda, istərsə də Qafqazda və İranda at dəfnli qəbir abidələri biri-birindən tam fərqli strukturlara, tiplərə malik olub müxtəlif arxeoloji mədəniyyətlərə aiddirlər. Hətta tarixi Azərbaycan coğrafiyasında (Xocalı-Gədəbəy, Naxçıvan mədəniyyətləri, Urmiya hövzəsi) atların dəfni ayrı-ayrı adətlərlə və müxtəlif strukturlu qəbirlərdə icra edilmişdir. Azərbaycandakı belə abidələrin irandilli arilərə aid etmək üçün heç bir elmi əsas yoxdur.

## ƏDƏBİYYAT

1.Aşurov S.H. (2004). "Maxta-Qarabulaq kurqanları". *Azərbaycan arxeologiyası və etnoqrafiyası*. № 1. S. 53-64.

2.Aşurov S.H., Hüseynova S.A., Əliyeva F.A. (2017). "Maxta arxeoloji ekspedisiyası"nın 2015-ci il tədqiqatları". *Azərbaycanda arxeoloji tədqiqatlar – 2015-2016.* Bakı: "Xəzər Universiteti", S. 105-111.

3. Cəfərov H.F. (2000). *Azərbaycan e.ə. IV minilliyin axırı-I minilliyin əvvəllərində (Qarabağın Qarqarçay və Tərtərçay hövzələrinin materialları əsasında).* Bakı: "Elm", 187 c.

4. Qoşqarlı Q., Müseyibli N., Aşurov S. (2003). *Borsunlu kurqanı.* Bakı: "Elm", 81 s.

5. Quliyev F. (2008). *Azərbaycanın kurqan qəbirlərində at dəfni*. Bakı: "Elm", 300 s.

6. Müseyibli N. (2007). "Qədim Azərbaycanda itlərdən istifadə və it kultu (etnoarxeoloji tədqiqat)". *Azərbaycan arxeologiyası və etnoqrafiyası*. № 2. C. 5-29.

7.Müseyibli N., Ağalarzad A. (2013). *Həsənsu kurqanı*. Bakı: "Nafta-Press", 92 s.

8. Müseyibli N. (2020). *Leylatəpə mədəniyyəti*. Bakı: "Elm və təhsil", 576 s.

9. Müseyibli N. (2023). "Xalkolit dövrü Muğan arxeoloji mədəniyyəti". *Sosial elmlər*. №2. S. 148-153.

10. Алекперов А.К. (1960). *Исследования по археологии и этнографии Азербайджана*. Баку: Изд. АН Азербайджанской ССР. 250 c.

11. Алиев И. (1960). *История Мидии*. Баку: Изд. АН Азербайджанской ССР. 425 c.

12. Алиев И. (1973). «[рец. на] Э.А.Грантовский. Ранняя история иранских племен Передней Азии». Москва: «Наука», 1970, 394 стр. *Вестник древней истории*. Москва: «Наука». С. 172-183.

13. Алиев И. (1979). «О скифах и Скифском царстве в Азербайджане». *Переднеазиатский сборник. III. История и филология стран Древнего Востока*. Москва: «Наука». С. 4-14.

14. Алиев И. (1986). «Несколько слов о скифо-сакской проблеме». *Известия Академии Наук Азербайджанской ССР. Серия истории, философии и права*. № 1. С. 127-138.

15. Алиев И. (1987). «О проникновении на территорию Азербайджана ираноязычных племен в конце II - начале I тысячелетия до н.э.». *Известия Академии Наук Азербайджанской ССР. Серия истории, философии и права*. № 2. С. 57-68.

16. Алиев Играр, Погребова М.Н. (1981). «Об этнических процессах в областях Восточного Закавказья и Западного Ирана в конце II - начале I тысячелетия до н.э.». *Труды международного симпозиума*

*по этническим проблемам истории Центральной Азии в древности (II тысячелетие до н.э.). Душанбе, 17-22 октября 1977 г.* Москва: «Наука». С. 126-137.

17. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. (1959). *Древний Мингечаур (эпоха энеолита и бронзы)*. Баку: Изд. АН Азербайджанской ССР. 238 с.

18. Грантовский Э.А. (1970). *Ранняя история иранских племен Передней Азии*. Москва: «Наука». 394 с.

19. Грантовский Э.А. (2007). *Ранняя история иранских племен Передней Азии*. Москва: «Восточная литература». 510 с.

20. Джафаров Г. (2023). *Азербайджан и Древний Передний Восток: культурно-экономические связи в эпоху поздней бронзы и раннего железа*. Баку: Изд. ИАА НАНА. 232 с.

21. Дьяконов И.М. (1956). *История Мидии от древнейших времен до конца IV в. до н.э.* Москва-Ленинград: Изд. АН СССР. 486 с.

22. Дьяконов И.М. «Сравнительное языкознание, история и другие смежные науки». *Лингвистическая реконструкция и древнейшая история Востока. Тезисы и доклады конференции. Часть 2. Лингвистическая и историческая реконструкция (проблемы интердисциплинарных исследований)*. Москва: «Наука», 1984. С. 3-20.

23. Гусейнова М. (2011). *Из истории Южного Кавказа. Ходжалы-гедабекская культура Азербайджана (XVI-IX вв до н.э.)*. Баку: «Bizim kitab», 200 с.

24. Козенкова В.И. (2018). «Заметки о некоторых аспектах и векторе развития кобано-скифских взаимоотношений». *Археологические вести. Вып. 24*. Санкт-Петербург: С. 290-310.

25. Кузьмина Е.Е. (1977). «Распространение коневодства и культа коня у ираноязычных племен Средней Азии и других народов Старого Света». *Средняя Азия в древности и средневековье (история и культура)*. Москва: «Наука», 1977. С. 28-52.

26. Кузьмина Е.Е. (2008). *Арии – путь на юг*. М; СПб: «Летний сад». 558 с.

27. Марковин В.И. (1969). *Дагестан и горная Чечня в древности. Каякентско-хорочоевская культура.* Москва: «Наука». 116 с.

28. Массон В.М. (1964). *Средняя Азия и Древний Восток.* Москва-Ленинград: «Наука». 467 с.

29. Махмудов Ф. (2008). *Культура юго-восточного Азербайджана в эпоху бронзы и раннего железа.* Баку: «Nafta-Press». 216 с.

30. Медведская И.Н. (1983). «Конский убор из могильника Сиалк В». *Iranica Antiqua. XVIII*. P. 59-79.

31. Медведская И.Н. (2013). «Конский убор Древнего Ирана: вопросы хронологии, происхождения и развития». *Российский археологический ежегодник*. № 3. С. 412-441.

32. Нариманов И.Г. (1987). *Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана.* Баку: «Элм». 260 с.

33. Погребова М.Н. (1977). *Иран и Закавказье в раннем железном веке*. Москва: «Наука». 184 с.

34. Погребова М.Н. (1984). *Закавказье и его связи с Передней Азией в скифское время*. Москва: «Наука». 248 с.

35. Погребова М.Н. (2011). *История Восточного Закавказья. Вторая половина II-начало I тыс. до н.э. (по археологическим данным)*. Москва: «Восточная литература». 422 с.

36. Пянков И.В. (1979). «К вопросу о путях проникновения ираноязычных племен в Переднюю Азию». *Переднеазиатский сборник. III. История и филология стран Древнего Востока.* Москва: «Наука». С. 193-207.

37. Смирнов К.Ф. (1957). «О погребениях с конями и трупосожжениях эпохи бронзы в Нижнем Поволже». *Советская археология*. XXVII. С. 209-221.

38. Тереножкин А.И. (1971). «Дата мингечаурских удил». *Советская археология*. № 4. С. 71-84.



Şəkil 1. III Mingəçevir kurqanı




1



2

***Şəkil 2. 1- Bıkovski kurqanı; 2- Həsənli qəbiri***

## Summary

**Najaf Museibli**

### Archaeological monuments of Azerbaijan and the case of ancient Iranians


The placement of neat and small cattle, dogs, and sometimes whole or fragmented parts of wild animals in graves during burials in the Late Bronze-Early Iron Ages in Azerbaijan was associated with the burial customs of that historical period. In particular, in a number of grave monuments belonging to the developed stage of the Khojaly-Gedabey and Nakhchivan cultures - the 13th-9th centuries BC, the custom of burying horses whole together with people or separately is found.

Despite the fact that the burial rites and archaeological materials belong entirely to the local culture, almost all Iranian scholars try to attribute these monuments to ancient Iranian-speaking tribes and connect them with their migrations. Thus, these scientists wrote that the Iranian-speaking tribes, who were the population of the Srub (srub - named for the burial rite - burial in a log house inside a kurgan) archaeological culture, where horse burials were performed in wooden tomb monuments during the specified period, migrated from the southern Russian steppes - the Ural-Volga region, and moved to Iran through Azerbaijan, thereby spreading the first Iranians and Aryans here. In their opinion, the kurgan monuments with horse burial discovered in Azerbaijan also belong to the ancient Iranian-speaking population. However, a comparative analysis of these monuments in the local and regional context does not confirm these ideas. In fact, in different regions of Eurasia, the domestication of horses, burials, and the cult of horses emerged independently in connection with the lifestyle, economy, beliefs, and social hierarchy of people.


***Keywords*****:** *Late Bronze-Early Iron Age, horse burials, migration directions, kurgans, burial chambers, horse equipment, Aryans, Iranian-speaking tribes.*

## Резюме

**Наджаф Мусеибли**

### Археологические памятники Азербайджана и вопрос о древних иранцах


В период поздней бронзы-раннего железа в Азербайджане захоронения крупных и мелких рогатых животных, собак, а иногда и целых или отдельных  частей диких животных были связаны с погребальными обрядами. В частности, в ряде погребальных памятников, относящихся к развитой стадии Ходжалы-Кедабекской и Нахчыванской культур – XIII-IX вв до н.э., встречается обычай захоронения лошадей целиком вместе с людьми или отдельно

Несмотря на то, что способы погребения и археологические материалы полностью принадлежат местной культуре, почти все ученые-ирановеды пытаются отнести эти памятники к древним ираноязычным племенам и связать эти памятники с их миграциями. Таким образом, эти ученые утверждают, что ираноязычные племена-арийцы, составляющие население срубной археологической культуры, где в указанный период практиковались конские захоронения в могилах с деревянными конструкциями, мигрировали из южнорусских степей – Урало-Волжского региона – и переселились в Иран через Азербайджан. По их мнению, обнаруженные в Азербайджане курганы с конскими захоронениями также принадлежат древнему ираноязычному населению. Однако сравнительный анализ этих памятников в локальном и региональном контексте не подтверждает эти идеи. В действительности, в разных регионах Евразии одомашнивание лошадей, захоронения и культ этого животного возникали независимо друг от друга в связи с образом жизни, экономикой, верованиями и социальной иерархией населения.


***Ключевые слова:*** *Период поздней бронзы-раннего железа, конские захоронения, направления миграции, курганы, погребальные камеры, конское снаряжение, арийцы, ираноязычные племена.*